Azərbaycan Memarlıq və İnşaat Universitetinin

# GENDER BƏRABƏRLİYİ SİYASƏTİ

Bakı-2022

Azərbaycan memarlıq və inşaat universiteti

**Mündəricat**

Ön söz.......................................................................3
Giriş.........................................................................5
Əsas..........................................................................6
Siyasətin əhatə dairəsi (işçilər üçün)................................6
Siyasətin əhatə dairəsi (tələbələr üçün).............................7
Siyasətin əsas prinsipləri (işçilər üçün)...............................7
Siyasətin əsas prinsipləri (tələbələr üçün).........................8
Xülasə......................................................................10

# Ön söz

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Azərbaycan Respublikasının ali təhsil müəssisələri arasında öz yeri və nüfuzu olan, zəngin təhsil ənənələrinə, güclü intellektual və kadr potensialına malik təhsil ocağıdır. Əsası 1975-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən qoyulan universitetdə tədris azərbaycan, rus və ingilis dillərində aparılır. Professor-müəllim heyəti 595 nəfər təşkil edir. 8 fakültədə bakalavr səviyyəsində 25, magistr səviyyəsində 26 ixtisas üzrə 10000-ə yaxın tələbə təhsil alır. Dünyanın 14 ölkəsindən 700-ə yaxın əcnəbi tələbəsi var. Universitetin nəzdində İnşaat Kolleci və Fizika-riyaziyyat təmayüllü Lisey, eyni zamanda 2010-cu ildən Layihə İnstitutu fəaliyyət göstərir. Ümumi sahəsi 49000m2 olan 4 tədris korpusu, tələbə şəhərciyi və idman kompleksi var.

Azərbaycan Memarlıq və İnşaat Universiteti 1920-ci ildə Bakı Politexnik Texnikumunun tərkibində İnşaat fakültəsi, 1932-34-cü illərdə sərbəst Azərbaycan İnşaat İnstitutu (Azİİ), 1934-cü ildən Azərbaycan Sənaye İnstitutunun tərkibində İnşaat fakültəsi kimi fəaliyyət göstərib. 1951-ci ildə Azərbaycan Politexnik İnstitutunun yaranması ilə əlaqədar Memarlıq və İnşaat fakültəsi statusunda oraya köçürülüb. 1975-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan İnşaat Mühəndisləri İnstitutu yaradılıb. 1992-ci ildən İnstitut Universitet statusu alıb. 2000-ci il iyun ayının 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə bu ali məktəb Azərbaycan Memarlıq və İnşaat Universiteti adlandırılıb.

Azərbaycan Memarlıq və İnşaat Universiteti öz strategiyasının əsas komponenti kimi gender bərabərliyinin olmasının vacibliyini dərk edir. Biz Universitetimizdə öyrədən və öyrənənlərin cinsi mənsubiyyətlərindən asılı olmayaraq tədris və təhsil prosesinin onların həyatına müsbət mənada töhfə verməsinin təmin edilməsinə cavabdehik. Universitet bütün qadın və kişi tələbələri üçün bilik və bacarıqlara bərabər çıxış imkanını yaradır. Universitet qadın və kişi heyətinin (əməkdaş və tələbər) bərabər hesab edilməsini və ləyaqət və hüquq nöqteyi nəzərdən bərabər rəftar edilməsini təmin edir. 1975-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində Qadınlar Şurası yaradılmışdır. Bu təşkilatın əsas məqsədi universitetimizdə təhsil alan tələbə qızların, habelə burada çalışan professor-müəllim, işçi və köməkçi qadınların iş, əmək və sosial məsələlərinin həllində onlara kömək etmək, qayğı göstərmək, müəyyən problemlər yaranarsa, aidiyyatı qurumlar qarşısında məsələ qaldırmaqdır.

# Giriş

Azərbaycan Memarlıq və İnşaat Universiteti cins əlamətinə görə bərabərliyin təmin edilməsi və ayrıseçkiliyin yol verilməməsinə nəzarət üçün Azərbaycan Respublikasında mövcud olan zəruri hüquqi çərçivələrə riyayət edir.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır və dövlət vətəndaşların hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

Bununla yanaşı, cinsi mənsubiyyətə görə ayrıseçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsi sahəsində ictimai münasibətlərin tənzimlənməsi “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təmin edilir. Qanunun III maddəsinə əsasən cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formaları qadağandır. Qanunun VI maddəsinə əsasən, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişi və qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi üçün dövlət tədbirlər görür.

Əmək münasibətləri sahəsinə gəldikdə cinsindən asılı olmayaraq bir iş yerində işləyən, eyni ixtisas dərəcəsinə malik olan, eyni iş şəraitində işləyən və eyni dəyərli işi yerinə yetirən işçilərə əməkhaqqı, həmçinin mükafatlar və işçini həvəsləndirmək məqsədilə ödənilən digər maddi ödənişlər eyni ödənilməli, eyni işlə məşğul olan işçilərə isə eyni iş şəraiti yaradılmalıdır.

# ƏSAS

Qlobal Məqsədlər olaraq tanınan Dayanıqlı İnkişaf Məqsədləri (SDGs) Birləşmiş Millətlər Təşkilatı tərəfindən 2015-ci ildə qəbul edilmişdir. Əsas məqsədi yoxsulluğa son qoymaq və planeti qorumaq olan bu fəaliyyət çağırışı 2030-cu ilə qədər bütün insanları sülh və firavanlıqda yaşamasını təmin etməyi hədəfləmişdir. Bu məqsədlə 17 DİM inteqrasiya olunub və DİM 5 gender bərabərliyinə xüsusi diqqət yetirir. Kişi və qadın bərabərliyi insan hüquqlarının tərkib hissəsi və demokratiya üçün əsas meyardır. Bərabərlik dinc, firavan və davamlı həyat üçün zəruri təməldir.

Bir ali təhsil müəssisəsi olaraq AzMİU sosial ədalətə töhfə verməkdə öz rolunu layiqincə yerinə yetirməkdədir

# SİYASƏTİN ƏHATƏ DAİRƏSİ

**(İşçilər üçün)**

a. İşə qəbul və yüksəliş

b. İşin şərtləri və şəraitləri

c. Peşəkar inkişaf

d. İş saatları

e. Təhlükəsiz iş mühiti

f. Rəhbərlik və idarəetmə

g. Şikayətlər, intizam tədbirləri və əmək müqaviləsinə xitam verilməsi.

# SİYASƏTİN ƏHATƏ DAİRƏSİ

**(Tələbələr üçün)**

a. Təhlükəsiz təhsil mühiti

b. Tələbələr üçün bərabər imkanlar

c. Şikayətlər, intizam tədbirləri

# SİYASƏTİN ƏSAS PRİNSİPLƏRİ

İşçilər üçün

1. AzMİU-nun əməkdaşları cinsindən asılı olmayaraq bərabər mükafatlar, resurslar və imkanlardan istifadə edə bilir.
2. AzMİU-da bütün işçilər üçün cinsi mənsubiyyətdən asılı olmayaraq hörmət və ləyaqətlə rəftar edildiyi iş mühiti mövcuddur.
3. Universitetdə ayrı-seçkilik yaradan davranışlara və ya rəftarlara yol verilmir. Buna baxmayaraq ayrı-seçkilik halları yaranan halda, buna Universitet rəhbərliyi tərəfindən tez zamanda və lazımi həssaslıqla reaksiya verilir.
4. Bütün işçilərin öz potensiallarını reallaşdırılmasında, işlərinə qiymət verilməsində və dəyərləndirilməsində eyni yanaşma tədbiq olunur.
5. Universitetdə qadınların və kişilərin karyeralarını inkişaf etdirmək və yüksəltmək məqsədilə bərabər şans əldə etmələri təmin olunur.
6. İşçilərin iş rejiminə cinsi mənsubiyyət təsir etmir.

7. Universitet işçilərinin rifah halının yüksəldilməsi və iş şəraitlərinin yaxşılaşdırılması üçün yerinə yetirdiyi tədbirlər zamanı cinsi oriyentasiyaya görə ayrı-seçkiliyə yol vermir.
8. Universitet cinsi oriyentasiyasından asılı olmayaraq əməkdaşların iş şəraitinin təhlükəsiz, sağlam və layiqli olmasını təmin edir.
9. İşçilərin hamiləlik və ya analıqla əlaqədar ehtiyaclarının ödənilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tənzimlənir.
10. Universitet şikayətlərin baxılmasında, intizam tədbirlərin yerinə yetirilməsində və əmək müqaviləsinə xitam verilməsində cinsi mənsubiyyət prinsipinin rəhbər tutulmasına yol vermir.

# SİYASƏTİN ƏSAS PRİNSİPLƏRİ

## Tələbələr üçün

1. AzMİU-da bütün tələbələr öz potensiallarını tam şəkildə reallaşdıra bilərlər; onların cinsi mənsubiyyəti təlim-tədrsi prosesinə heç bir təsir göstərmir.
2. Universitetdə qız və oğlan tələbələr üçün eyni imkanlar mövcuddur və onlara qarşı bərabərhüquqlu münasibət təmin edilir.
3. Həm qız, həm də oğlan tələbələrin bir-birinə eyni dəyər vermələrinə və hər cəhətdən bərabər münasibət göstərmələrinə Universitetin müvafiq təşkilatları tərəfindən nəzarət olunur.
4. Qız tələbələri üçün kampus həyatında onların hörmət, şəxsi təhlükəsizlik və iqtisadi təhlükəsizlik hüquqlarının qorunması təmin olunur.

5. Universitet məzmunu, dili və metodologiyasına görə hər iki cinsdən olan tələbələrin təhsil ehtiyaclarının ödənilməsi üçün kurrikulum təqdim edir.
6. Universitet tələbələrdə düzgün münasibətin və davranışın, sosial məsuliyyətin, empatiya və həssaslığın, bərabərhüquqlu və təhqiramiz münasibətlərin formalaşmasına diqqət yetirir.
7. Universitetdə cinsdən asılı olmayaraq bütün tələbələr üçün sosial və mənəvi cəhətdən rahat öyrənmə mühiti təmin edilir.
8. AzMİU bütün tələbələrinə şəxsi hörmət və təhlükəsizlik hüquqlarını başa düşməyə kömək edir.
9. Universitetdə təhlükəsiz, hər cür təcavüz və zorakılıqdan azad bir mühit mövcuddur.
10. Bilik, bacarıq və Universitetdə mövcud olan imkanlar və dəstək vasitələri bütün tələbələr üçün tam bərabər şəkildə əlçatandır.
11. Universitetdə şikayətlərin baxılmasında, inzibati və intizam tədbirlərin yerinə yetirilməsində cinsi mənsubiyyət prinsipinin rəhbər tutulmasına yol verilmir.

# Xülasə

Bu gender siyasətində müəyyən edilmiş prinsiplər Azərbaycan Memarlıq və İnşaat Universitetinin bütün işçilərinin və tələbələrinin bərabərliyini tanımaq üçün yaradılmışdır. Biz insan hüquqlarına hörmət edir,kişi və qadınlar üçün bərabər imkanlar təmin edirik. Prosesi nəzərdə saxlamaq və gender siyasətlərinin təsirini izləmək üçün Azərbaycan Memarlıq və İnşaat Universitetində işçi və tələbə qadınlarla bağlı mütəmadi hesabatlar aparılacaqdır. Qadınlar Şurasının və digər aidiyyati təşkilatların fəaliyyəti genişləndiriləcəkdir. Bundan sonra qadınların az təmsil olunduğu ixtisaslarda onların cəlb olunması və qadınlar üçün xüsusi proqramların təşkil olunması (mentorluq, sahibkarlıq və s.) istiqamətlərində işlər aparılacaqdır.